Xalq qəzeti.- 2024.- 23 yanvar, № 13.- S. 5

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 30** **Bakı şəhəri, 19 yanvar 2024-cü il**

***Azərbaycan Milli Elmlər Akademiyasının Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutunun, Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun adlarının dəyişdirilməsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 30 sentyabr tarixli 374 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Milli Elmlər Akademiyasının strukturu"nda dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Milli Elmlər Akademiyasının təklifinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Milli Elmlər Akademiyasının:

1.1. Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutu Abbasqulu Ağa Bakıxanov adına Tarix və Etnologiya İnstitutu adlandırılsın;

1.2. Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu Arxeologiya və Antropologiya İnstitutu adlandırılsın.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 30 sentyabr tarixli 374 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1107) ilə təsdiq edilmiş "Azərbaycan Milli Elmlər Akademiyasının strukturu"nda 2.2-ci və 2.3-cü bəndlər aşağıdakı redaksiyada verilsin:

"2.2. Abbasqulu Ağa Bakıxanov adına Tarix və Etnologiya İnstitutu;

2.3. Arxeologiya və Antropologiya İnstitutu;".

**3.** Azərbaycan Milli Elmlər Akademiyası bu Qərardan irəli gələn məsələləri həll etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***